*Silahlı Qüvvələrin yaradılması Azərbaycanın dövlət müstəqilliyini və suverenliyini təsdiq edən, onu nümayiş etdirən amillərdən biridir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 25 iyun 2016-cı il | № 48 (2063) | Qiymətı 25 qəpik

# 26 İyun - Silahlı Qüvvələr Günüdür

## A.N.Qurbanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin inkişafında və təbliğində xidmətlərinə görə Abdulla Novruz oğlu Qurbanova Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2016-cı il.

## Y.Y.Axundzadəyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin

### Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və "Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

1. Azərbaycan mədəniyyətinin, o cümlədən incəsənətinin inkişafında və təbliğində xidmətlərinə görə Yusif Yevgeniyeviç Axundzadəyə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2016-cı il.

## Ali Baş Komandan İlham ƏLİYEV:

*Orduya diqqət Azərbaycan dövlətinin prioritetidir. Mən çox şadam ki, cəmiyyət də bu təşəbbüsləri alqışlayır. Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərtləndirən amildir. Biz bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq, bu diqqəti göstərəcəyik.*




*Silahlı Qüvvələr dövlətin ən zəruri atributlarından hesab edilir. Hər bir xalqın var olması, öz taleyinə sahib çıxması üçün dövləti, dövlətinin mövcudluğu üçünsə Silahlı Qüvvələrinin qurulması vacib və labüddür. Xalq şairi Zəlimxan Yaqub bu fikri poetik dillə necə gözəl və dolğun ifadə edib: "Ordum varsa, yurdum var, ordum yoxsa, yurdum yox." Bəli, qürur hissilə deyə bilərik ki, müstəqilliyimizin təminatçısı olan ordumuz da var, onun inamla, göz bəbəyi kimi qoruduğu yurdumuz da.*

98-ci ildönümünü fərəh hissilə qeyd etdiyimiz Azərbaycan Silahlı Qüvvələri üçün iyun ayı təkcə əlamətdar günlə deyil, həm də döyüş hazırlığı tədbirlərinin zənginliyilə diqqəti çəkir.

Azərbaycan Silahlı Qüvvələrinin xüsusi təyinatlıları Türkiyə, Bolqarıstan və Gürcüstan ordularının nümayəndələrilə birlikdə çoxmilləti birgə xüsusi təyinatlı qüvvələr təlimində uğurla iştirak etdi.

Müxtəlif qoşun növlərinə məxsus hərbi hissələrin iştirakı ilə Silahlı Qüvvələrimizdə iyunun 24-də yekunlaşmış operativ-taktiki təlimlər isə miqyasının genişliyi və əhəmiyyətinə görə önəmli hadisə kimi yadda qaldı. Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi manevrlər cəbhəboyu zonanı, Naxçıvan Muxtar Respublikasında yerləşən poliqonları, eləcə də Xəzər dənizinin Azərbaycan sektorunu əhatə edirdi.

Hərbi manevrlər birlik və birləşmə komandanlıqlarının qoşunların və döyüş sistemlərinin idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsi, eləcə də ağır döyüş şəraitində qarşılıqlı fəaliyyəti, döyüş uzlaşmasının davamlılığı və möhkəmləndirilməsi, həmçinin yeni texnoloji vasitələrin və silahların geniş tətbiqi baxımından böyük önəm kəsb etdi.

Operativ-taktiki təlimlər bir daha göstərdi ki, dövlətimizin və müstəqilliyimizin təhlükəsizliyinin təminatçısı kimi Azərbaycan Silahlı Qvvələri bu gün ən müasir silah və texnika ilə təmin olunub, möhkəm döyüş hazırlığına və hərbi potensiala malikdir. Ordumuz dövlətin əsas güc strukturu kimi qarşıya qoyulan istənilən döyüş tapşırığını yüksək peşəkarlıqla yerinə yetirməyə qadirdir.

Bu gün Azərbaycan Ordusunun inkişaf yoluna nəzər saldıqda, əslində, dövlətçilik tarixinizlə eynilik təşkil edən bu yolun heç də hamar olmadığını görürük.

**(Ardı 3-cü səhifədə)**

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına ali hərbi rütbə verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıda adları göstərilən hərbi qulluqçularına general-mayor ali hərbi rütbəsi verilsin:

Polkovnik Bağırov Gəray Abbas oğlu
Polkovnik Əfəndiyev Ənvər Zəkəriyyə oğlu
Polkovnik Əlibəyov Elxan Əlibəy oğlu
Polkovnik Məmmədov Fuad Nadir oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2016-cı il.

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularına və mülki işçilərinə fəxri adların verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Silahlı Qüvvələrində tibb xidmətinin yaranmasında, şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında və mənəvi-psixoloji hazırlığının yüksəldilməsində fədakar əməyinə, Azərbaycanda təhsilin və mətbuatın inkişafında xidmətinə və uzunmüddətli səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilsin:

**"Əməkdar həkim"**

Əlləzov Çingiz Bayram oğlu - tibb xidməti polkovniki

**"Əməkdar müəllim"**

Məmmədova Nərgiz Qədir qızı

**"Əməkdar jurnalist"**

Hüseynov Rəşid Məmməd oğlu.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2016-cı il.

## Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının müstəqilliyinin, ərazi bütövlüyünün qorunub saxlanılmasında xüsusi xidmətlərinə, xidməti vəzifələrini və hərbi hissənin qarşısında qoyulmuş tapşırıqları yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin aşağıda adları göstərilən hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə:**

Osmanov Nizam Ramazan oğlu - general-leytenant
Əliyev İkram Zülfü oğlu - general-mayor
Mahmudov Hüseyn Pənah oğlu - general-mayor
Behbudov Elzamin İlyas oğlu - polkovnik
Əhmədov Mənsum Sabir oğlu - polkovnik
Əliyev Azər Əli oğlu - polkovnik
Əsgərov Ramil Əlimiran oğlu - 1-ci dərəcəli kapitan
Xəlilov Sarı Qədir oğlu - polkovnik
Məmmədov İlqar Kazım oğlu - polkovnik
Nəsibov Qədir Əşrəf oğlu - polkovnik
Poladov Namiq Qasım oğlu - polkovnik
Ağahüseynov Rauf Sütun oğlu - polkovnik-leytenant
Musayev Musa Tahir oğlu - polkovnik-leytenant
Qəhrəmanov Şahin Orduxan oğlu - polkovnik-leytenant
Vəliyev Zaur İmdad oğlu - mayor
Haşımov Elşad Bahadur oğlu - kapitan

**"İgidliyə görə" medalı ilə:**

Kərimov Anar Təvəkkül oğlu - polkovnik
Aslanov Rəşad Əmirbəy oğlu - polkovnik-leytenant
Cəfərov Xəqani Vədud oğlu - polkovnik-leytenant
Hüseynov Telman Əsgər oğlu - polkovnik-leytenant
Hacıyev Firuz Firdovsi oğlu - mayor
Şahgeldiyev Ağasəmi Kərimbala oğlu - baş leytenant
Məmmədov Sərxan Sənani oğlu - gizir
Əlizadə Ağakişi İlham oğlu - kiçik çavuş
Rəhimov Rövşən Mobil oğlu - əsgər

**"Hərbi xidmətlərə görə" medalı ilə:**

Əbilov Elşad İbrahim oğlu - polkovnik
Əhmədov Nazim Fazil oğlu - polkovnik
Həmidov Məhərrəm Əliəşrəf oğlu - polkovnik
Nəbiyev Ağayar Bəxtiyar oğlu - polkovnik
Orucəliyev Mayis Mirzəyar oğlu - polkovnik
Ramazanov Nəsif Məmmədəli oğlu - polkovnik
Rzayev Mübariz Balağa oğlu - polkovnik
Səfərəliyev Emin Polad oğlu - tibb xidməti polkovniki
Səmədov Elman Mühyəddin oğlu - polkovnik
Abdulxalıqov İlqar Səftər oğlu - polkovnik-leytenant
Cəbrayılov Aqil Ağacəfər oğlu - polkovnik-leytenant
Əmirov Səxavət Əvəz oğlu - polkovnik-leytenant
İbrahimov Şəhadət Əlövsət oğlu - polkovnik-leytenant
Məmmədov Elmar Heybətqulu oğlu - polkovnik-leytenant
Əmirov Zamiq Məhəmməd oğlu - mayor
Hüseynov Xaliq Araz oğlu - mayor
Ömərov Səbuhi Babaxan oğlu - mayor
Abbasov Elmir Sahib oğlu - kapitan
Abdullayev Rəşad Arif oğlu - baş leytenant
Hüseynov Şəhriyar Sədyar oğlu - baş gizir
Əliyev Babək Bəxtiyar oğlu - gizir
Məmmədov Zamiq Gülağa oğlu - kiçik gizir

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 iyun 2016-cı il.

## 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə Silahlı Qüvvələrin şəxsi heyətinə

### Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Cənab zabitlər, gizirlər, miçmanlar, kursantlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə təbrik edir, Vətən naminə müqəddəs və şərəfli xidmətinizdə hər birinizə uğurlar arzulayıram.

Silahlı Qüvvələrimiz 98-ci ildönümünü böyük ruh yüksəkliyi, döyüş və mənəvi-psixoloji hazırlıqda qazandığı nailiyyətlərlə qarşılayır. Xalqımızın ümummilli lideri Heydər Əliyevin digər sahələrlə yanaşı, ordu quruculuğu sahəsində də apardığı siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir. Ali Baş Komandanımızın qeyd etdiyi kimi, Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə də cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir. Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir.

Günün müxtəlif vaxtlarında, istənilən iqlim şəraitində irimiqyaslı taktiki təlimlərdə şəxsi heyət öz peşəkarlığını, yüksək döyüş qabiliyyətini dəfələrlə nümayiş etdirir. Azərbaycan əsgəri quruda, havada və dənizdə Vətən qarşısında vəzifə borcunu şərəf və vicdanla yerinə yetirir, ulu öndərimizin ideyalarına sadiqdir, Vətənin hər bir çağırışına hər an hazırdır. Bu gün xalq ilə ordunun sağlam və monolit birliyi yaranıb. Xalq öz ordusuna inanır, onun gücünə güvənir. Şəhid ailələri, müharibə veteran və əlilləri, eləcə də hər bir hərbi qulluqçu ölkə rəhbərliyinin daim diqqət və qayğısı ilə əhatə olunub. İnanıram ki, bu sizi sevindirməklə yanaşı, məsuliyyətinizi daha da artırır.

Ordumuz aprel ayının əvvəllərində düşmən təxribatlarının qarşısını layiqincə aldı. Azərbaycan əsgəri doğma torpaqlarını necə müdafiə etdiyini, Vətən uğrunda son damla qanınadək vuruşmağı bacardığını və düşməndən üstün olduğunu bütün dünyaya sübut etdi.

Əmin olduğumu bildirirəm ki, Silahlı Qüvvələrimizin şəxsi heyəti bundan sonra da xalqımızın və dövlətimizin etimadını şərəflə doğruldacaq, hərbi intizamını artıracaq, döyüş və mənəvi-psixoloji hazırlığını yüksəldəcək, qazandığı uğur və nailiyyətlərlə xalqımızı sevindirəcək və tezliklə işğal altında olan əzəli və əbədi torpaqlarımızın azad edilməsinə nail olacaqdır.

Hər birinizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının Müdafiə naziri**

## Bir qrup hərbi qulluqçuya növbəti "polkovnik" hərbi rütbəsi verilib



***İyunun 24-də Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmri ilə Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü ərəfəsində hərbi xidmətdə fərqlənən bir qrup zabitə növbəti "polkovnik" hərbi rütbəsi verilib.***

Tədbirdə Müdafiə naziri rütbələrə təqdim olunan hərbi qulluqçuları təbrik edərək onlara gələcək xidmətlərində uğurlar arzulayıb, müvafiq tapşırıq və tövsiyələrini çatdırıb.

Təltif olunan zabitlər göstərilən etimada görə, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Şəxsi heyət rütbələrə təqdim olunmalarının Silahlı Qüvvələr Günü ərəfəsinə təsadüf etməsindən böyük qürur duyduqlarını və hərbi xidmətə daha da məsuliyyətlə yanaşacaqlarını xüsusi qeyd ediblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti,**
**foto çavuş Vüsal HƏMİDOVUNDUR**

# Müdafiə naziri NATO Müdafiə Kollecinin rəisi ilə görüşüb



***Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO Müdafiə Kollecinin rəisi general-mayor Yanuş Boyarski ilə görüşüb.***

Qonağı salamlayan Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və onun nəticələri, həmçinin qoşunların qarşıdurma xəttindəki cari əməliyyat şəraiti barədə məlumat verib.

Nazir Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlıq proqramları, xüsusilə də Azərbaycan Silahlı Qüvvələri ilə alyansa üzv olan və tərəfdaş dövlətlər arasında qarşılıqlı əməliyyat uyarlılığının əldə edilməsi, Əfqanıstanda həyata keçirdiyi "Qətiyyətli Dəstək" missiyasına verilən töhfə haqqında ətraflı danışıb.

Müdafiə naziri Zakir Həsənov "Müdafiə Təhsilinin Genişləndirilməsi Proqramı" çərçivəsində Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasına göstərilən dəstəyə görə qonağa öz təşəkkürünü bildirib.

Öz növbəsində general-mayor Yanuş Boyarski Müdafiə Kollecinin fəaliyyəti barədə məlumat verərək Azərbaycana səfərdən məmnun qaldığını diqqətə çatdırıb.

O, səfərdə olan bütün heyət üzvləri adından səmimi qəbula, müxtəlif qurumlarda görüşlərin təşkilinə görə Müdafiə nazirinə təşəkkür edərək Müdafiə Kollecinin təşkil etdiyi mövcud kursların vacibliyini xüsusi vurğulayıb. Avropa, Yaxın Şərq və Şimali Afrika regionlarının 31 ölkəsindən olan 120 nəfərlik heyətin əksəriyyətinin müdafiə və təhlükəsizlik sahəsində strateji vəzifələrdə çalışdığını diqqətə çatdıran qonaq bu cür səfərlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu qeyd edib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Gəncədə hərbi qulluqçulara yeni mənzillər verilib



İyunun 24-də Gəncə şəhərində Silahlı Qüvvələr Günü ərəfəsində "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2011-ci il 28 dekabr tarixli Fərmanının icrası ilə əlaqədar Silahlı Qüvvələrdə 20 il və daha artıq qüsursuz xidmət etmiş hərbi qulluqçulara daimi mənzillərin təqdim olunması mərasimi keçirilib.

Tədbirdə çıxış edən birlik komandiri general-mayor Xəqani Cəbrayılov hərbi qulluqçuların dövlət vəsaiti hesabına mənzillə təmin olunması prosesinin uğurla davam etdiyini bildirərək zabitlərə və onların ailə üzvlərinə Müdafiə Nazirliyi rəhbərliyinin təbriklərini çatdırıb.

Sonra Silahlı Qüvvələrin sıralarında xidmət edən, istefada və ehtiyatda olan 146 hərbi qulluqçuya mənzillərin sənədləri və açarları təqdim olunub.

Mərasimdə çıxış edənlər yaradılan şəraitdən məmnun qaldıqlarını və göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# “Bizim ordumuz bizim qürurumuzdur”

**(Əvvəli 1-ci səhifədə)**

Keçmiş ölkə rəhbərliyinin dövləti idarəetmə təcrübəsinin olmaması, arxasında regionun qüdrətli dövlətinin, dünyaya səpələnmiş və Qarabağ savaşına əvvəlcədən kifayət qədər hazırlaşmış güclü erməni lobbisinə məxsus təbliğat maşınının dayandığı Ermənistanla müharibədə aydın, düşünülmüş strateji xətt yeridə bilməməsi, müharibə aparan ölkədə ictimai-siyasi sabitliyə nail olunmaması nizami ordunun yaradılmasına və hərbi hissələrdə mənəvi-psixoloji iqlimə mənfi təsir göstərmişdi.

1993-cü il iyunun 15-də ümummilli lider Heydər Əliyev hakimiyyətə ikinci dəfə qayıtdıqdan sonra vəziyyət tədricən dəyişdi. Onun 1993-cü il noyabrın 2-də radio və televiziya ilə xalqa tarixi müraciətindən sonra Ermənistan-Azərbaycan cəbhəsində əsaslı dönüş yarandı.

Ancaq müdrik dövlət adamı çox yaxşı başa düşürdü ki, ordumuzda köklü hərbi islahatlara böyük ehtiyac var. Atəşkəs rejimi əldə edildikdən sonra Silahlı Qüvvələrdə müasir standartlara cavab verən, vahid komandanlıq prinsipi ilə idarə olunan intizamlı ordu formalaşdı.

Heydər Əliyev kursunun layiqli davamçısı olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev dəfələrlə öz çıxış və nitqlərində vurğulayıb ki, məqsəd güclü ordunun yaradılmasıdır.



Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində hərbi təhsil müəssisələrinin buraxılışına həsr olunmuş təntənəli mərasimdə dövlət başçısı demişdi: "Orduya diqqət Azərbaycan dövlətinin prioritetidir. Mən çox şadam ki, cəmiyyət də bu təşəbbüsləri alqışlayır. Bizim ordumuz bizim qürurumuzdur. Bizim ordumuz müstəqilliyimizi şərtləndirən amildir. Biz bundan sonra da orduya, ordu quruculuğuna, hərbçilərə olan diqqəti artıracağıq, bu diqqəti göstərəcəyik."

Aprelin 1-dən 2-nə keçən gecə Ermənistan silahlı birləşmələrinin artilleriya silahlarından bütün cəbhəboyu mövqelərimizə, kənd və qəsəbələrimizə zərbə endirəndə yaşayış məntəqələrimizi atəş altında saxlayan yüksəkliklərdəki düşmən mövqelərini birdəfəlik susdurmaq üçün ordumuzun cəbhə xəttindəki bölmələri hərəkətə keçdi.

Ermənilər həmişə bəyanatlar verirdilər ki, onlar öz mövqelərini qorumaq üçün eşelonlaşdırılmış güclü müdafiə yaradıblar. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun əmrilə cəsur Azərbaycan oğulları hücuma keçərək həmin mövqeləri qısa zamanda yardılar, Tərtər, Goranboy və Füzuli rayonları istiqamətində təhlükə obyekti olan düşmən mövqelərini ələ keçirərək həmin yüksəkliklərdə möhkəmləndilər.

Aprelin 9-da Nazirlər Kabinetinin iclasında Ermənistanın Azərbaycana qarşı növbəti silahlı təxribat törətdiyini deyən Prezident İlham Əliyev xüsusi vurğuladı ki, təxribatın qarşısı alındı, düşmənə layiqli cavab verildi. "Azərbaycan öz torpaqlarını qoruya, öz hərbi mövqelərini daha da möhkəmləndirə bildi. Bu qanlı toqquşma bir daha onu göstərir ki, Ermənistan işğalçı siyasətini davam etdirir, sülh istəmir və çalışır ki, danışıqlar prosesi pozulsun. Bunu deməyə bizdə kifayət qədər əsas var, ilk növbədə, danışıqların 20 ildən çox müddət ərzində aparılması onu göstərir ki, Ermənistan sadəcə olaraq danışıqları sonsuz proses kimi görmək istəyir."

Ordumuzun apardığı son əməliyyatlar göstərdi ki, Azərbaycan mövcud vəziyyətlə barışmaq niyyətində deyil və münaqişənin həll edilməsində ən önəmli amil, ən kəsərli arqument Azərbaycan Silahlı Qüvvələridir.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev çıxışlarında ordu quruculuğunun ölkə üçün prioritet məsələ olduğunu dəfələrlə vurğulayıb. Dövlət rəhbərliyi səviyyəsində Silahlı Qüvvələrin inkişafına verilən dəyər bir daha onu göstərir ki, Ermənistan tərəfindən işğal edilmiş Azərbaycan torpaqlarının dinc yolla qaytarılması mümkün olmadığı və sülh danışıqları heç bir nəticə vermədiyi halda ölkəmizin ərazi bütövlüyünün digər vasitələrlə bərpa edilməsi qətidir.

Hazırda Vətən oğulları Silahlı Qüvvələrimizin müxtəlif qoşun növlərində döyüş hazırlığı planına uyğun hərbi peşəkarlıqlarını artırır, Ermənistan silahlı birləşmələri ilə təmas şəraitində ayıq-sayıq döyüş növbəsi aparırlar. Bir sözlə, ordumuz döyüş hazırlığı prosesini davam etdirir, müstəqil dövlətçiliyimizin keşiyində möhkəm dayanır.

**Əbülfət QASIMOV,**
**fotolar "Azərbaycan Ordusu"nun arxivindəndir**

# "Mən zabitəm, ana!"

## Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində növbəti buraxılış mərasimi keçirilib



... Yay hökmünü göstərməkdədi - bürküdü...

Həzin-həzin əsən yel ağacların xırdaca budaqlarını titrətsə də, bürkünü yumşalda bilmir. Göm-göy göy üzündə bircə əlçim də bulud yoxdu. Buludsuz göyün altında bürküyə məhəl qoymayanların tələsik addımlarında kövrək, kövrək olduğu qədər də istəkli, diləkli, murazlı bir həyəcan hiss edilir. Dörd il əvvəldən bu günə ad olan həyəcan bir azdan sovuşacaq, bir azdan ürəklər bu həyəcanı əvəzləyəcək sevincə, qürura darlıq eləyəcək...

Bir azdan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təntənəli buraxılış mərasimi olacaq. Mərasimə tələsənlər kursantların ata-anasıdı, nənə-babasıdı, bacı-qardaşıdı...

Hərbi səhra mundiri geyinmiş 7-8 yaşlı bir uşaq gedir, dayanır, anasını gözləyir, yenidən qabağa qaçır. Dayanıb anasını səsləyir: "Tez ol, ay ana, gecikərik...". "Bu yaşda bu istəklə yaşayan uşaq böyüyəndə hərbçi olacaq", - düşünürəm. Maraq güc gəlir. Ona yaxınlaşıram. Adını soruşuram. "Vaqifdi", - deyir. "Vaqif Sultanov".

- Hara tələsirsən?
- Qardaşım and içəcək.
- Böyüyəndə nəçi olacaqsan?
- Kursant olacam!

O qədər inamla, o qədər istəklə, sevgilərlə deyir ki,...

Ağacların xırdaca budaqları titrəməkdədi...

Vaqiflə yanaşı gedirik; mən bir qədər yavaş, o bir qədər iti yerişlə. "Görəsən, Vaqif danışsa, kursantlara nə deyərdi?" - düşünürəm. Düşüncələrimə sevgi, inam, etibar rəngli işıq süzülür...

Kursant atası Səməd Qasımovla kəlmələşirik. Qarabağ müharibəsi əlili deyir ki, bu gün hamımızın yaddaşında yaşayacaq. "Dörd il bu günün şirin həyəcanıyla yaşamışıq. Oğlunu zabit mundirində görmək ata üçün əvəzsiz sevincdi. Biz bu sevinci bu məktəbin zabitlərinin, müəllimlərinin zəhməti sayəsində yaşayırıq. Onlar Vətən naminə öyrətdilər, oğullarımız Vətən naminə öyrəndi. İnanıram ki, bu gün hərbi and içən kursantlar nümunəvi xidmətiylə onların da, bizim də etimadımızı doğruldacaqlar."

Məktəbin qərargah rəisi polkovnik Mübariz Rzayevin əmriylə and içəcək kursantlar - gənc leytenantlar toplaşanların alqışlarıyla yerlərini tuturlar.

Azərbaycan Respublikasının Dövlət himni səslənir. Kursantların nizami düzülüşü "...Səndən ötrü can verməyə cümlə qadiriz!", "Üçrəngli bayrağınla məsud yaşa!" - deyənlərin ruporudu sanki. Vaqif 5-6 addımlığımdadı. Sağ əlini ürəyinin üstünə qoyub himnimizi oxuyur...

Ümummilli liderimiz Heydər Əliyevin, müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu ehtiram sükutuyla yad edilir; gözlərini qırpmadan bir azdan and içəcək kursantların nizami düzülüşünə baxanlardan biri də Vaqifdi...




Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev çıxışında məzunları, valideynləri, məktəbin zabit və müəllimlərini növbəti buraxılış münasibətilə təbrik edərək ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbiylə hakimiyyətə qayıdışından sonra Silahlı Qüvvələrimizin formalaşmasından, bütün ömrünü Azərbaycanın dövlətçiliyinə, xalqına həsr edən dahi rəhbərin hərbi təhsilə də xüsusi diqqət yetirdiyindən və s. danışır.



Nazir müavini çıxışına davam edərək deyir: "Silahlı Qüvvələrimizin apreldə erməni təxribatlarına qarşı əks-hücum əməliyyatı nəticəsində uzun illər işğal altında olan vacib əhəmiyyətə malik yüksəkliklər azad edildi. Bu döyüşlərdə zabit və əsgərlərimizin göstərdiyi rəşadət xalqımızın yaddaşına həkk olundu. Düşmən hiss edir ki, Azərbaycan Ordusu hər zaman ondan üstündür. Vətənə, xalqa, dövlətə sədaqəti hədsizdir. Silahlı Qüvvələrin rəhbərliyi əmindir ki, bugünkü zabitlər şəhidlərimizin qisasını alacaq, torpaqlarımızın müdafiəsində qəhrəmanlıqlar göstərəcəklər. Torpaqlarımızın azad edilməsində Vətən sizdən şücaət gözləyir."

General-leytenant Kərim Vəliyev çıxışının sonunda bu gün zabit kimi ordu sıralarına daxil olanları bir daha təbrik edir, onlara xidmətdə uğurlar və cansağlığı arzulayır...

Silahlı Qüvvələrimizin zabit kadrları ilə komplektləşdirilməsində mühüm rol oynayan Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində son vaxtlar həyata keçirilən islahatlar - tədrisin daha dinamik təşkili kursantların istər nəzəri, istərsə də təcrübi bilik və vərdişlərini daha da artırıb.

Aprel döyüşləri təsdiqlədi ki, yüksək peşə hazırlığına malik olan zabit döyüşdə tapşırıqları mükəmməl yerinə yetirir. O zabitlər bu məktəbin məzunlarıdı. Bundan sonra da kursantların hərbi biliklərə dərindən yiyələnəcəyinə, mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olacağına inanırıq...

Kursantlar hərbi and içirlər...

Məktəbi fərqlənmə diplomu ilə bitirənlərə diplomlar Müdafiə nazirinin şəxsi heyət üzrə müavini - Şəxsi Heyət Baş İdarəsinin rəisi general-leytenant Kərim Vəliyev tərəfindən təqdim edilir...



Kursantların baxışlarında qədərsiz sevinc görünür: onlar kursant adıyla vidalaşıb leytenant adının şərəfinə sığınıblar...

Onlara Müdafiə nazirinin adından qiymətli hədiyyələr də verilir.

Məktəbin döyüş bayrağının təhvili, qəbul edilməsi də coşqu ilə qarşılanır. Təhvil verən gənc leytenantın, təhvil alan kursantın dedikləri amal kimi, əqidə kimi səslənir: "Bu bayrağı göz bəbəyi kimi qorudum!", - deyir leytenant, "Bu bayrağı göz bəbəyi kimi qoruyacam!" - deyir kursant...

Məzunların təntənəli keçidi ürəkləri coşdurur. Bu mətin yerişdən riqqətə gələnlərin sevinci ürəyinə sığmır. Atalar, analar, qardaşlar əzizlərini mətin yerişlə ötüb-keçənlərin sırasında tanımağa çalışır. Tanıyan da olur, tanımayan da...

Məktəbin rəisi polkovnik Füzuli Salahov gənc zabitləri təbrik edir...

Tədbir başa çatır...

Gənc leytenantı bağrına basan ana da görürəm, başqa bir gənc leytenantın boynuna sarılan uşaq da. Diqqət yetirirəm: Vaqifdi!..

...Yel bürkünü yumşaldıb....

Səhər-səhər kürlük eləyən həyəcan sovuşub...

Ötüb-keçməkdə olan kursant qürurla, fəxrlə deyir: "Mən zabitəm, ana! Zabitəm!" Dönüb baxıram. Bayaq yaş kötüyünə simvol vurandan sonra "Bu şərəfli işi yerinə yetirməyin qürurunu yaşayıram. Andımıza sadiq qalacağıq!.." - deyən gənc leytenant Mais Əsgərovdu...

Könlümdən bir istək keçir: yaxın vaxtlarda ondan qalib ordunun zabiti kimi müsahibə götürmək!..

O günə az qalıb...



**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Silahlı Qüvvələrin Hərbi Akademiyasında buraxılış mərasimi olub

***İyunun 23-də Silahlı Qüvvələrin Hərbi Akademiyasında Əməliyyat-taktiki fakültəsinin, həmçinin Strateji Araşdırmalar və Dövlət Müdafiəsini İdarəetmə Akademik kursunun buraxılışına həsr olunan mərasim keçirilib.***





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, mərasimdə məruzə ilə çıxış edən Akademiyanın rəisi general-leytenant Heydər Piriyev bildirib ki, aprelin ilk günlərində erməni təxribatının qarşısı Azərbaycan Ordusu tərəfindən layiqincə alındı. Düşmənə çox böyük zərbələr endirildi, əməliyyat-taktiki cəhətdən əhəmiyyətli hakim yüksəkliklər azad olundu və daha əlverişli hərbi mövqelərə nəzarət bərpa edildi.

"Biz hamımız əminik ki, bu gün Hərbi Akademiyadan məzun olan zabitlər təyin olunduqları yüksək vəzifələrdə tədrisdə aldıqları bilikləri məharətlə tətbiq edəcək və torpaqlarımızın azadlığı uğrunda gedən döyüş əməliyyatlarında uğurlar qazanacaqlar", - deyə H.Piriyev əlavə edib.

Sonra məzunlara diplomlar və döş nişanları verilib. Məzunlar adından Akademiyaya xatirə hədiyyələri təqdim olunub.

# Məktəbin şərəfini daim uca tutacaqlarına söz verdilər

## Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarının növbəti buraxılışı keçirilib

***İyunun 22-də Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarının 44-cü buraxılış mərasimi keçirildi. Burada əsl bayram əhval-ruhiyyəsi hiss olunurdu. Mərasimin keçirildiyi sıra meydanı bayraqlarla bəzədilmişdi. Kursantların arzular, ümüdlər ümmanına çevrilən ürəklərinin döyüntüsü adi günlərdəkindən tam fərqli idi. Onların üzündə sevinc, duruşlarında isə məğrurluq hiss olunurdu. İlk hərbi təhsil ocağından, müəllimlərindən və kursant yoldaşlarından ayrılmağın çətinliyi, kövrəkliyi onların Vətən sevgisi ilə alışıb yanan gözlərinin dərinliyindən sezilirdi.***



Tədbirdə liseyin şəxsi heyəti, Müdafiə Nazirliyinin nümayəndələri, müəllimlər, kursantlar, təhsil ocağını müxtəlif illərdə bitirmiş məzunlar, valideynlər və ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

"Düzlən, farağat! Diqqət mərkəzə!" əmri ilə hər kəsin nəzərləri meydanın mərkəzinə yönəldi. Hərbi liseyin şəxsi heyətinin 44-cü buraxılış mərasiminə hazır olması barədə məktəb rəisinə raport verildi. Sonra üçrəngli bayrağımız fəxri qarovulun müşayiəti ilə sıra meydanına gətirildi.

Əvvəlcə ümummilli lider Heydər Əliyevin, Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Tədbirdə ilk olaraq çıxış edən hərbi liseyin rəisi polkovnik Rüfət Əmirov bu əlamətdar gün münasibəti ilə şəxsi heyəti və kursantların yaxınlarını təbrik etdi. Bildirdi ki, əsası 1971-ci ildə ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş C.Naxçıvanski adına Hərbi Lisey Silahlı Qüvvələr üçün zabit kadrlarının hazırlanmasında əvəzsiz rol oynayır. "İxtisaslı hərbi kadrların hazırlanması ordu quruculuğunun əsasını təşkil edir. Ölkəmizdə hakimiyyətdə olduğu bütün dövrlərdə milli hərbi təhsili diqqət mərkəzində saxlayan ümummilli liderimiz Heydər Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 30 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə bu sözləri demişdi. "Sizə səmimi deyirəm, Naxçıvanski adına Hərbi Lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax bu cür baxacağam." Biz daim ulu öndəri minnətdarlıq hissi ilə yad edirik. Bu gün Silahlı Qüvvələrin, eləcə də hərbi liseyin şəxsi heyəti də Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısını hiss edir. Məzunlarımız daim Azərbaycan Respublikasına xidmət edərək Vətən torpağı üçün canlarını əsirgəməmişlər. Onlardan on nəfəri "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüş, yüzlərlə məzunumuz isə müxtəlif orden və medallarla təltif olunmuşlar. Aprelin əvvəllərində gedən döyüşlər zamanı erməni işğalçılarına qarşı qısamüddətli hərbi əməliyyatda liseyimizin məzunları olmuş zabitlər də böyük qəhrəmanlıqlar göstərmişlər."



Məktəbin onlarla məzununun ali hərbi rütbəyə yüksəldiyini də diqqətə çatdıran polkovnik kursantları bir daha təbrik edərək gələcək təhsillərində və xidmətlərində uğurlar arzuladı.

Məzunlar adından söz alan kursant Nail Qəribov ilk olaraq dövlətimizin onlara yaratdığı yüksək şəraitə görə minnətdarlığını bildirdi. Təhsil aldıqları illər ərzində komandir və müəllimlərinin tələbkarlığı sayəsində hərbi biliklərə yiyələndiklərini, qarşıda onları ciddi sınaq gözlədiyini, aldıqları təhsilin hər zaman onların köməyinə çatacağını qeyd etdi." - Əlbəttə, çox yaxşı bilirik ki, bizi hələ qarşıda daha boyük məsuliyyətli vəzifələr gözləyir. Doğma torpaqlarımızı erməni işğalçılarından azad etmək üçün savadlı, bacarıqlı, vətənpərvər zabitlər kimi yetişməliyik. Cəbhə bölgəsində gedən son döyüşlərin qələbə müjdəli xəbərləri biz kursantları daha da ruhlandırdı və seçdiyimiz müqəddəs peşəyə həvəsimizi daha da artırdı."

Kursant öz yoldaşları adından Vətən, dövlət, xalq qarşısında üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə və hərbi liseyin şərəfini hər zaman uca tutacaqlarına söz verdi.

Liseyin müəllimi Sahib Əsədov məzunlara uğurlar diləyərək Vətənə layiqli zabit olmağı arzuladı.

Kursant Ülvi Həsənlinin atası Musa Həsənov övladının timsalında bütün məzunları təbrik edərək çətin, lakin şərəfli yolda dözümlü, dəyanətli olmalarını tövsiyə etdi.

Liseyi fərqlənmə ilə bitirən kursantlara - Türkel Hüseynova, Mərhəmət Fərəczadəyə və Nail Qəribova təhsil rəmzləri polkovnik Rüfət Əmirov tərəfindən təqdim olundu. Həmçinin digər məzunlara da attestat, döş nişanları və xatirə albomları təqdim olundu.

Məktəbin yaş kötüyünə 2016-cı il buraxılışının rəmzi xatirə lövhəsini təhsildə birinci olmuş Türkel Hüseynov vurdu.

Mərasimdə yaşanan maraqlı hadisələrdən biri məzunların bayrağı 3-cu kursa təhvil verməleri oldu. Kursant İmran Nərimanov tərəfindən bayrağın kursant Mirməmməd Qurbanova təntənəli şəkildə təqdim edilməsi coşqu ilə qarşılandı. Kursantlar "Naxçıvanskilər" marşını ifa etdilər.



Gələcəyin zabitləri olacaq gənclər təntənəli marşla sonuncu dəfə tiribunanın önündən keçdilər. Tədbir son zəngin səslendirilməsi ilə başa çatdı.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

# Müdafiə naziri operativ-taktiki təlimlərin döyüş atışlı mərhələsini izləyib



***Azərbaycan Silahlı Qüvvələrinin cəbhə bölgəsində idarəetmə orqanları, birlik, birləşmə, həmçinin hərbi hissələrin cəlb olunduğu operativ-taktiki təlimlərin iyunun 22-də döyüş atışlı mərhələsi keçirilib.***

Təlimlərdə əsas məqsəd birlik və birləşmə komandanlıqlarının, qoşunların və döyüş sistemlərinin idarə edilməsi vərdişlərinin təkmilləşdirilməsindən, eləcə də ağır şəraitdə aparılan müasir ümumqoşun döyüşünün hərbi elementlərinin qarşılıqlı fəaliyyəti və döyüş uzlaşmasının səviyyəsinin artırılmasından ibarətdir.

Təlimlərə 25 min nəfərədək şəxsi heyət, 300-dən çox tank və zirehli döyüş maşını, 100-dən artıq raket və artilleriya qurğusu, 40-a yaxın hərbi aviasiya, 30-dan çox hava hücumundan müdafiə sistemləri və Xüsusi Təyinatlı Qüvvələrin bölmələri cəlb olunub.

Əvvəlcə Müdafiə naziri general-polkovnik Zakir Həsənov komanda məntəqəsində olub, birlik, birləşmə, hərbi hissə komandirlərinə, eləcə də qərargah rəislərinə təlimin ssenarisinə uyğun göstəriləcək fəaliyyətlərlə bağlı tapşırıqlar verib və məruzələri dinləyib.

Daha sonra döyüş atışlı taktiki fəaliyyətlər mərhələsi başlayıb. Təlimə uyğun olaraq siqnal minaları ilə şərti düşmənin və Azərbaycan silahlı bölmələrinin ön xətti nümayiş etdirilib. Təlimdə hücum əməliyyatının qərarına uyğun olaraq, hücumun atəş hazırlığı üç atəş basqını üzrə planlaşdırılıb. Birinci atəş basqınında düzünə tuşlamaya çıxarılmış tanklar və döyüş maşınları, minaatan batareyalar, özüyeriyən artilleriya divizionları, ağır odsaçan sistemlər batareyası, digər artilleriya divizionları və batareyaları iştirak edib. İkinci atəş basqını ordu və cəbhə aviasiyasının vasitəsilə yerinə yetirilib və bu atəş basqınında Silahlı Qüvvələrin hücum təyyarələri, qırıcı və döyüş helikopterləri iştirak ediblər. Üçüncü atəş basqınında düzünə tuşlamaya çıxarılmış tanklar və döyüş maşınları, minaatan batareyalar, özüyeriyən və reaktiv artilleriya divizionları təlimlərə qoşulub.



Hücumun atəş hazırlığı başa çatdıqdan sonra bölük taktiki qrupları üç istiqamətdə müdafiəni yararaq, şərti düşmənin dayaq məntəqələrini ələ keçirib. Bu qruplar dərinlikdə qurulmuş tank əleyhinə xəndəklərin və torpaq bəndlərin arxasında atəş mövqeyi tutaraq bu maneələrdən keçidlər açan mühəndis texnikasını öz atəşləri ilə himayə edib, həmçinin ikinci eşelon bölüklərinin döyüşə yeridilməsini təmin edib. Təlimin növbəti mərhələsində düşmənin mina sahələrindən keçidlərin açılması müşahidə edilib. Təlimdə helikopterlər vasitəsi ilə dağ aşırımlarına taktiki desant qruplarının endirilməsi icra edilib. Taktiki desant qruplarının endirilməsi döyüş helikopterləri ilə dəstəklənib. Təlimin son mərhələsində canlı qüvvənin və hərbi texnikanın hərəkəti, eləcə də mövqeyinin dəyişdirilməsi müşahidə olunub, helikopterlərlə təxliyyə həyata keçirilib.

Təlimləri yüksək qiymətləndirən Müdafiə naziri general-polkovnik Zakir Həsənov qeyd edib ki, təlimlərin əsas xüsusiyyəti güclü müdafiəyə malik şərti düşmən nəzərə alınmaqla, əməliyyatların silahlanmada olan yeni texnoloji vasitələrin və silahların geniş tətbiqi ilə keçirilməsidir. Nazir deyib: "Baş Qərargah qarşısında qoyulan vəzifəyə uyğun olaraq təlimlər maksimal döyüş şəraitinə uyğun keçirildi. Topçular, tankçılar, piyada döyüş maşınları və pilotlar əlaqəli şəkildə işləyərək bütün hədəfləri dəqiqliklə vurdu, qarşıya qoyulan vəzifəni yüksək səviyyədə icra etdilər. Bununla belə təlimlər zamanı qoşunların yüksək döyüşə hazırolma səviyyəsinə gətirilmə qabiliyyəti, onların yenidən qruplaşması üzrə tədbirlərin keçirilməsi, həmçinin döyüş və maddi-texniki təminat məsələləri yoxlanıldı və daha dərindən təhlil ediləcək."

Sonda təlimdə fərqlənən bir sıra hərbi qulluqçular mükafatlandırılıb.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Azərbaycan Respublikasının Müdafiə naziri İran tərəfinə başsağlığı verib

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov iyunun 22-də İranın Neyriz bölgəsində avtobusun dərəyə aşması nəticəsində çoxlu sayda hərbi qulluqçunun həlak olması və xəsarət alması ilə bağlı İran İslam Respublikasının Müdafiə və Silahlı Qüvvələrə Dəstək naziri general-mayor Hüseyn Dehqana və dost ölkənin Baş Qərargah rəisi general-leytenant Seyid Həsən Firuzabadiyə başsağlığı ünvanlayıb.

Başsağlığında bildirilir: "Dost İran İslam Respublikasının Neyriz bölgəsində avtobusun dərəyə aşması nəticəsində çoxlu sayda hərbi qulluqçunun həlak olması və xəsarət alması haqqında xəbər məni dərindən kədərləndirdi.

Həlak olanlara Allahdan rəhmət diləyir, onların yaxınlarının dərdlərinə şərik olur, ailələrinə dərin hüznlə başsağlığı verirəm. Bütün yaralılara şəfa diləyirəm."

## Silahlı Qüvvələrdə növbəti dəfə "Açıq qapı" günü keçiriləcək

Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, Silahlı Qüvvələr Günü münasibətilə iyunun 26-da saat 11.00-da bütün hərbi hissələrdə əsgər valideynləri və yaxınları üçün "Açıq qapı" günü təşkil olunacaq.

Həmin gün ziyarətçilər, ictimaiyyət, kütləvi informasiya vasitələrinin nümayəndələri hərbi hissələrdə şəxsi heyət üçün yaradılan sosial-məişət şəraiti ilə tanış olmaq, xidməti, inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəklər.

Müxtəlif hərbi hissələrdə Silahlı Qüvvələrin bütün rəhbər heyətinin iştirakı ilə keçiriləcək "Açıq qapı" günündə valideynlərlə görüşlər təşkil olunacaq, onları maraqlandıran məsələlərin müzakirəsi aparılacaq və digər mədəni-kütləvi tədbirlər keçiriləcəkdir.

# Hərbi liseydə tədris ilinə yekun vuruldu




***İyunun 22-də Cəmşid Naxçıvanski adına Hərbi Liseyin 2015-2016-cı tədris ilinin yekun tədbiri Təlim və Tədris Mərkəzinin sıra meydanında keçirildi. Mərasimdə hərbi liseyin şəxsi heyəti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının nümayəndələri iştirak edirdilər.***

Öncə ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi polkovnik Rüfət Əmirov tədbir iştirakçılarını salamlayaraq kursantları tədris ilinin yekunu ilə əlaqədar təbrik etdi. Qeyd etdi ki, bu tədris ilində hərbi liseydə təlim və tədrisin səviyyəsinin yüksəldilməsi, müasir standartlara uyğun qurulması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. "Hərbi liseyin zabit heyəti və müəllim kollektivi kursantların vətənpərvərlik, Vətənə sədaqət ruhunda tərbiyə olunması, təlim və tədris prosesinin modernləşdirilməsi yönümündə səylə çalışaraq üzərlərinə düşən vəzifələri uğurla həyata keçirir. Kursantlar hərbi vərdişlərin mənimsənilməsində və biliklərə yiyələnməkdə yüksək nailiyyətlər əldə ediblər. Bu gün hər birimizin qarşısında müqəddəs bir vəzifə - əzəli və əbədi torpaqlarımızı işğaldan azad etmək vəzifəsi dayanır. Liseydə təhsil alan kursantların hər birinin qüdrətli ordumuzun layiqli zabitləri olacağına inanırıq."

Sonra hərbi lisey rəisinin şəxsi heyətin 2015-2016-cı tədris ilinin yekunlarına görə həvəsləndirilməsi haqqında əmri oxundu. Kursantlar, müəllimlər və başqaları qiymətli hədiyyələrlə, fəxri fərmanlarla təltif olundular.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının məsul işçisi Xoşqədəm Bağırova da söz alaraq ilk öncə təmsil olunduğu qurumun rəhbərliyi, şəxsən millət vəkili Səttar Möhbalıyevin adından tədris ilinin yekunu və qarşıdan gələn 26 İyun - Silahlı Qüvvələr Günü münasibəti ilə müəllimləri və kursantları təbrik edərək bildirdi ki, konfederasiya artıq 16 ildir liseyi mədəni hamiliyə götürüb. "Gələcəyimizin etibarlı təminatçıları olan gənclərimizin vətənpərvərlik ruhunun yüksəldilməsi və asudə vaxtlarının səmərəli keçməsi üçün il ərzində kursantlar arasında "Azərbaycan əsgəri" bədiiləşdirilmiş qiraət musabiqəsi, "Vətənə xidmət edirik" rəsm müsabiqəsi və Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun xatirəsinə həsr olunmuş idman oyunları keçirilib. Sevinirəm ki, bu gün sıralarımızda Vətəninin adını hər şeydən uca tutan cəsur, istedadlı gənclər yetişir. Gələcəkdə onların böyük nailiyyətlər əldə edəcəklərinə və ordumuzun qüdrətlənməsinə töhfə verəcəklərinə inanırıq."

Müsabiqələrin qalibləri olan kursantlar qiymətli hədiyyələr, diplom və medallarla mükafatlandırıldı. Bu tədbirlərin təşkilində xüsusi əməyi olan bir qrup müəllim də diplom və pul mükafatları ilə təltif olundu.

Xoşqədəm Bağırova kursantların hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında və onların asudə vaxtlarının səmərəli təşkilində göstərdiyi xidmətlərə görə liseyin rəisi tərəfindən fəxri fərmanla təltif edildi.

Tədbir liseyin şəxsi heyətinin marşı ilə başa çatdı.

**Leytenant
Günay TAĞIYEVA,
"Azərbaycan Ordusu",
foto
çavuş
Namiq PƏNAHOVUNDUR**

***Əziz oxucu! Yəqin, bu sərlövhəni oxuyan zaman bir bədii ifadə vasitəsi olduğunu fikirləşəcəksiniz. Əslində isə bu müşahidənin bədii əksidir. Daim fikirlərimi ifadə edəndə mütləq reallığa və faktlara əsaslanmağa çalışıram.***

*Vətənpərvərlik*

# Qələbəyə yol əsgərin ürəyindən keçir



Nizamnamələrə görə, istər müdafiə, istərsə də hücum döyüşləri zamanı əsgərlə əsgər arasında müəyyən edilmiş məsafə olmalıdır. Vətən torpaqlarına, işğalçılıq məqsədilə təcavüz edən düşmən sərhədboyu müdafiə səngərlərimizdə on metrdən bir dayanmış əsgərlərimizlə qarşı-qarşıya gələcək. Sözsüz ki, Vətənimizin müdafiəsində dayanmış Azərbaycan əsgəri azğın düşmənə qarşı cəsarətlə döyüşərək onu geri çəkilməyə məcbur edir. Düşmən, qarşısında qoyulmuş tapşırığı yerinə yetirmək üçün səngərdə dayanmış əsgərlərimizi öldürərək cəsədləri üzərindən keçmək istəyəcək. Ancaq Azərbaycan əsgəri dözüm və inadkarlıqla döyüşərək düşmənin canlı qüvvəsini və texnikasını məhv edərək onu geri çəkilməyə məcbur edir. Əgər əsgər taktiki cəhətdən çəld və çevik, fiziki cəhətdən möhkəm və qüvvətli, atıcı kimi sərrast və mahirdirsə, silah və texnikanı mükəmməl bilirsə, ayıq-sayıq, prinsipial və vətənpərvərdirsə, deməli, döyüşə mükəmməl formada hazırdır. Belə hazırlıqlı əsgər özünü dünyanın ən böyük qəhrəmanı kimi dərk edərək hərbi əməliyyatlarda döyüşçü yoldaşlarının da liderinə çevrilir. Tarixə nəzər salanda görürük ki, torpağın, Vətənin, millətin, dövlətin taleyi həmişə cəsur döyüşçülərdən, ağıllı sərkərdələrdən, uzaqgörən siyasətçilərdən asılıdır.

Dünyanın fatehlərindən olan Çingiz xan psixoloji olaraq döyüşə hazır olmağın sirrini belə qiymətləndirirdi: "Bir mıx bir nalı, bir nal bir atı, bir at bir sərkərdəni, bir sərkərdə bir qoşunu, bir qoşun bir dövləti saxlayır". Yəni, bir dövlətin sarsılmazlığı və qüdrəti ayrı-ayrılıqda hər bir əsgərin döyüşə hazırlığından asılıdır. Bu gün biz yüksək döyüş hazırlığı əsgərin tərbiyə işini mənəvi-psixoloji təminat adlandırırıq. Əgər əsgər silahın, texnikanın sirlərini mükəmməl bilmirsə, sözsüz ki, o, fiziki və psixoloji olaraq döyüşə hazır deyil.

Əsgər torpaq qədər müqəddəsdir, çünki döyüşdə torpaq üzərində onun qanı tökülür. Torpaq öz gücünü, qüdrətini, dəyərini əsgərdən alır. Vətənin şərəfi də, şöhrəti də məhz belə oğullar, belə qəhrəmanlardır. Ümummilli liderimiz Heydər Əliyev deyirdi: "Əgər qan tökülməsə, o Vətən Vətən deyil, şəhid olmasa, o Vətən müstəqil ola bilməyəcək". Vətənimizin, millətimizin, dövlətimizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda minlərlə oğul və qızlarımız öz arzu və istəyini, amalını qurban verərək canından keçib. Körpə bir uşağın dilində ilk dəfə səslənən ana sözü nə qədər şirin və əczakardırsa, hər bir əsgər tərəfindən qürurla səslənən "Vətən" sözü də bizim üçün elə əzizdir.

Yaxşı xatırlayıram, 1993-cü il yanvarın 4-ü idi. Qarabağda ağır döyüşlər gedirdi. Ermənilər qəflətən kəndlərimizdən birinə hücuma keçmişdilər. Bölmələrimiz düşməni itkilərə məruz qoydu. Bizim də itkilərimiz olmuşdu. Döyüşün sonunda şəhid əsgərlərimizin cənazələrini həmin kənddə orta məktəbin qarşısında qoyaraq vidalaşırdıq. Cənazələr arasında Şəmkir rayonunun Kür qəsəbəsindən olan Elçin Bağırov adlı bir əsgərimizi gördükdə çox sarsıldım. O, öz səmimiyyəti, cəsarəti və mədəniyyəti ilə hamının hörmətini qazanmışdı. Elçin nişanlı idi. Deyirdi ki, müharibə qurtaran kimi toyum olacaq. Sizi də toyuma çağıracam. Hərbi hissəmizin komandiri Heydər Piriyev (hazırda Azərbaycan Silahlı Qüvvələrinin Hərbi Akademiyasının rəisi, general-leytenant) başda olmaqla hamı şəhidlərimizlə vidalaşırdı. Bu zaman bölük komandirinin tərbiyəvi işlər üzrə müavini baş leytenant İlyas Quliyev bizə yaxınlaşaraq əsgər Bağırovun cənazəsini göstərib hüznlü şəkildə dedi:

- Bu gün səhər "qalx" komandasından sonra əsgər Elçin Bağırov mənə yaxınlaşıb dedi ki, yoldaş baş leytenant, səhərə yaxın maraqlı bir yuxu görmüşəm. Mən ondan soruşdum ki, nə görmüsən? Elçin dedi ki, yuxuda kənd orta məktəbinin qarşısında bütün əsgər yoldaşlarımın və komandirlərimin toyuma toplaşdıqlarını gördüm. Gördüm ki, valideynlərim də yanımdadır. Hamı məni təbrik edir, xeyir-dua verirdi. Ətrafıma baxıb fikirləşdim ki, yaxşı, bunlar məni hansı qızla evləndirirlər? Yanımdakı əsgər yoldaşlarımdan soruşurdum ki, bəs, mənim nişanlım kimdir? Heç kim mənə cavab vermir və qarmaqarışıq şəkildə rəqs edirdilər. Bu zaman məktəbin damındakı bacadan ağ gəlinlik duvağında bir qızın mənə baxaraq gülümsəyə-gülümsəyə əl etdiyini gördüm. O qız sanki nə məni görür, nə də eşidirdi. Gülə-gülə mənə əl edir, məni yanına çağırırdı. Sonra qəflətən yox oldu. Bu zaman mən yuxudan oyandım və qan-tər içində olduğumu gördüm..."

Həmin gün ermənilər qəflətən kəndə girməyə cəhd göstərirlər və Elçin döyüşdə həlak olur.

Əvvəldə dediyimiz kimi, əsgər öz Vətəni, torpağı uğrunda döyüşdə düşmənə qarşı mübarizə aparanda Vətəni, torpağı qorumaq, müdafiə etmək, düşmənə bir addım da olsun irəliləməyə imkan verməmək barədə düşünür. Həmin anda əsgərin gözü önündə onun şəxsi arzuları yox, yalnız milli dövlətçilik maraqları dayanır. Çünki hər şey torpağın üzərindədir. İlk növbədə, bizim arzularımız, istəklərimiz millətimiz, dövlətimiz, ata-babalarımızın qəbri, ana-bacılarımızın namusu, elmimiz, mədəniyyətimiz, incəsənətimiz, nəyimiz varsa, hamısı bu torpağın üzərindədir. Əgər, bu torpaq varsa, yuxarıda sadaladığımız hər şey bizimdir və bizim olacaq. Yox, əgər torpaq düşmən əlinə keçərsə, dediklərimizin heç birisi bizim olmayacaq. Torpağı və Vətəni olmayan insan necə yaşaya bilər? Əgər millətin dövləti yoxdursa, o millətin qüruru olmayacaq. Millətin öndə gedən, uzaqgörən, onu ətrafına toplayaraq arxasınca aparmağa qadir olan müdrik rəhbəri yoxdursa, o millət məhvə məhkumdur.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1993-cü ilin iyununda yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanı bütün bəlalardan xilas etdi. Hakimiyyət böhranı, vətəndaş qarşıdurması və müharibənin qarşısı alındı. Ölkəmiz ümummilli liderimiz Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində uğurlu inkişaf dövrünə qədəm qoydu. 1993-1994-cü illərdə Qarabağ cəbhəsində gedən qanlı döyüşlərdə düşmən hücumlarının qarşısının qətiyyətlə alınaraq dayandırılması və döyüş cəbhəsində dönüş xəttinin yaradılması məhz böyük rəhbərimizin adı ilə bağlıdır.

Yaxşı yadımdadır, o ağır və çətin günlərdə ulu öndər cəbhə bölgələrinə gələrək avtomat götürüb böyük lider kimi hamıya nümunə göstərdi ki, hər bir azərbaycanlı bu ağır gündə Vətənin müdafiəsinə qalxmalıdır. Əsgərlərlə görüşlərinin birində ulu öndər Heydər Əliyev belə dedi: "Əziz döyüşçülər, bizim yeganə yolumuz odur ki, səngərlərdə möhkəm dayanaraq torpaqlarımızı müdafiə edək, düşmənin hər bir hücumuna layiqli cavab verək." Bu müdrik kəlam hər bir əsgərdə böyük ruh yüksəkliyi və Vətənə məhəbbət hissi yaratdı. Nəticədə Azərbaycan əsgərinin qürur və dəyanətini görən düşmən layiqli cavabını alaraq geri çəkilməyə məcbur oldu.

Bu gün hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan əsgəri, zabiti, generalı xalqımızın dahi oğlu Heydər Əliyevin keçdiyi mənalı və şərəfli ömür yolunu özünə örnək bilir. Hər birimiz ümummilli liderimiz kimi yaşamalı, işləməli, dövlət müstəqilliyimizin möhkəmləndirilməsi, tərəqqisi yolunda əlimizdən gələni əsirgəməməliyik.

**Polkovnik
Mirqiyas RÜSTƏMOV,
Əlahiddə Ümumqoşun
Ordunun mənəvi-psixoloji
təminat şöbəsinin rəisi**

# “Döyüş tapşırıqlarını yerinə yetirəcəyik”

***Əlahiddə Ümumqoşun Orduda müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və gizir hazırlığı kurslarını başa vuran məzunlar arasında qadın hərbi qulluqçular da var idi.***



Buraxılış mərasimində ilk olaraq şəxsi heyətin hazırlığı ilə bağlı məruzə edilib.

Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Mərasimdə məzunlar adından Səid Əliyev və Müşərrəf Həmidova çıxış edərək söz veriblər ki, kurs zamanı əldə etdikləri bilik və təcrübə sayəsində bundan sonra da doğma Vətənin müdafiəsində ayıq-sayıq dayanacaq, verilən tapşırıqları öhdəsindən layiqincə gələcəklər.

Sonra zabitlərdən Mənsum Əhmədov çıxış edərək bildirib ki, Vətənə sədaqətli, hərtərəfli biliyə malik, peşəkar hərbi kadrların hazırlanması qarşıya qoyulmuş məqsədlərdən biridir. "Artıq Əlahiddə Ümumqoşun Orduda müvafiq kurslar uğurla təşkil edilir. Bu kursları bitirən məzunlar öz xidmətlərini ordu sıralarında şərəflə və məsuliyyətlə yerinə yetirirlər."

Ardınca Əlahiddə Ümumqoşun Ordu komandanının təbriki şəxsi heyətə çatdırılıb.

Bildirilib ki, dərs, məşğələ və təlimlərdə fəal iştirak edən şəxsi heyətin mənəvi-psixoloji və fiziki hazırlıq səviyyəsi, döyüş qabiliyyəti daha da artırılır ki, hərbi qulluqçularımız istənilən döyüş tapşırığının öhdəsindən layiqincə gələ bilsinlər. Təlimlərin nəticəsi göstərir ki, Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti hətta ən çətin hava və relyef şəraitində də döyüş əməliyyatlarını həyata keçirməyə qadirdir.

Kursu müvəffəqiyyətlə bitirən məzunlara sertifikatlar təqdim edilərək xidmətlərində uğurlar arzulanıb.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu və gizir hazırlığı kurslarının birinciləri Rəvan Mirzəyev və Tural Qurbanov tərəfindən yaş kötüklərinə buraxılış emblemləri vurulub.

Atıcı ixtisası üzrə kursu bitirənlər tərəfindən gözləri bağlı vəziyyətdə müxtəlif atıcı silahların normativə uyğun sökülüb yığılması nümayiş olunduqdan sonra məzunların təntənəli keçidi olub.

Hərbi qulluqçulardan Müşərrəf Həmidova söhbətimizdə bildirdi ki, mülki həyatda tibb bacısı ixtisasını bitirib. "Mən də igid oğullarımızla birlikdə əzəli torpaqlarımızın işğaldan azad edilməsində iştirak etmək məqsədi ilə hərbi formanı geyməyi qərara aldım. Dərs və məşğələlərdə müvəffəqiyyətlə iştirak etdiyim üçün bu gün məzun oldum. Əsasən snayper hazırlığı və paraşütlə tullanma üzrə məşğələlər çox maraqlı idi."

Digər hərbi qulluqçu Ramilə Mirzəyeva idi. Onun gözlərindən həm sevinc, həm qürur, həm də məzun olmağın həyəcanı hiss edilirdi. "Biz qadın hərbi qulluqçular da igid oğullarımızla birlikdə verilən hər bir döyüş tapşırıqlarını yerinə yetirəcəyik."

Sonra gizir hazırlığı kursunu bitirən məzunlardan Ziya Tağıyev, Qənbər Yusifoğlu və digərlərinin fikirləri ilə tanış oldum. Onlar bildirdilər ki, bir müddət əvvəl müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kursunu bitirib ordu sıralarında xidmətə başlayıblar. Nümunəvi xidmət etdikləri üçün gizir hazırlığı kursuna cəlb edilərək bu kursu da müvəffəqiyyətlə başa vurublar. Onlar bundan sonra da böyük məsuliyyətlə xidmət aparacaqlarına söz verdilər.

**Nəriman NƏCƏFOV,
"Azərbaycan Ordusu"**



# Yeni əsgər yataqxanası istifadəyə verildi

**İyunun 23-də Müdafiə Nazirliyi Maddi-Texniki Təminat Baş İdarəsinin tabeliyində olan hərbi hissədə müasir dövrün tələblərinə cavab verən əsgər yataqxanası istifadəyə verildi. Əsgərlərə yaradılan bu şərait hərbi qulluqçuların məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirdiyi tədbirlərin davamıdır.**

Mərasimlə əlaqədar hərbi hissənin həyəti və sıra meydanı bayraqlarla bəzədilmişdi. Əsgər yataqxanasının açılış mərasiminə gələn Müdafiə nazirinin müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi vəzifəsini icra edən polkovnik Fuad Məmmədov əlamətdar hadisə ilə bağlı əsgərləri təbrik etdi. O bildirdi ki, ordumuza göstərilən qayğı dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin göstərişi ilə və Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında şəxsi heyətin məişət şəraitinin yüksək səviyyədə qurulması istiqamətində atılan mühüm addımlardan biridir. "Silahlı Qüvvələrdə tikinti işləri sürətlə davam edir. Bu bir daha sübut edir ki, Ali Baş Komandan ordunun hər bir problemi ilə yaxından maraqlanır, hərbi qulluqçuların qayğısına qalır və orduda həyata keçirilən tədbirləri nəzarətdə saxlayır. Bununla yanaşı, ordunun maddi-texniki təminatında böyük işlər görülür, Silahlı Qüvvələrin istifadəsinə ən müasir döyüş texnikası, silah-sursat verilir".

Sonra çıxış edən polkovnik-leytenant Ağalar Abbasov onlara göstərilən diqqət və qayğıya görə ölkə başçısına və ordu rəhbərliyinə təşəkkür etdi. Silahlı Qüvvələrin 98-ci ildönümü ərəfəsində müasir tipli əsgər yataqxanasının



şəxsi heyətə ən böyük hədiyyə olduğunu bildirdi.

Tədbirin rəsmi hissəsindən sonra polkovnik Fuad Məmmədov əsgər yataqxanasının açılışını bildirən rəmzi lenti kəsdi. Burada maddi-texniki təminatla təchiz edilmiş silah, ideoloji, məişət və başqa otaqlara baş çəkdi, "Həyəcan" və "Yanğın əleyhinə" vasitələrlə yaxından tanış oldu. Zabit F.Məmmədov yataqxananın hazırlanmasında əməyi olan hər kəsə təşəkkür etdi.

Sonda əsgərlərlə birgə nahar təşkil edildi.

**Mayor**
**Bəxtiyar ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

*Könlüm şeir istəyir*

# Mən əsgər gedirəm!

Şeir duyğulardan yaranır, duyğular ifadə eləyir, duyğular üçündü.

Şeir müşahidədən yaranan, ümumiləşdirilən mətləbdi. Təbiət gözəllikləri də, bu gözəlliklərdən süzülüb gələn təəssüratlar da, daxili aləmin gizlin-aşkar çırpıntıları da misra-misra könüllərə hopur. Duyğu belə şeirləşir, şeir belə yaranır. Yeniyetmə belə bir mühitdə əhatələnir, dünyaduyumu həm də bu amilin cazibəsində formalaşır.

Oxuyur da, yazır da. Düşüncələrinin işığında yazır, düşüncələrini yazır.

Milli mədəniyyətimizə bağlı olmayan, milli mədəniyyətimizi sevməyən gənc Vətəni Vətənin arzuladığı səviyyədə sevə bilərmi? - yox, sevə bilməz. Şeiri duyğularına üzərrik eləyən əsgər daha qətiyyətli, daha dönməz, daha cəsur olur. Şeirin mənəvi-psixoloji gücünə bələd olmayanlar əsgərin duyğularının şeirsizləşdirilməsinə həvəsiyir. Təəssüf...

Azərbaycan əsgəri şeiri sevir də, yazır da, oxuyur da. Səngərlərdə əsgərlərimizlə çox kəlmələşmişəm. Vətəndən, torpaqdan danışmışıq, işğal olunmuş torpaqlarımızın sızıltılarını yaşaya-yaşaya könlümüz oralara meyillənib. Onda dadımıza şeir çatıb. Şeir də oxumuşam, şeir də dinləmişəm. Oxuduğum şeirin istisinə isinməmiş eşitdiyim şeirə (şeirlərə) sığınmışam: şeir biçimli dumduru duyğuları bağayarpağı əvəzi ağrıyan ağrılarımıza qoymaq istəmişik.



Kənan Məmmədli dövlət imtahanlarını verib hərbi xidmətə gedəcək. Təsadüfən görüşdük. Onunla da Vətəndən, torpaqdan, səngərlərdən, səngərlərə səngər olan oğullardan danışdıq. Qəzetimizdə dərc olunmuş "O dağın bu üzündə" reportajını xatırladtı. "O əsgərləri qardaşlarım bildim. Könlüm məni onların sırasına çəkməkdədi. Çağırışçı yaşıdlarıma demək istəyirəm ki, onların hər biri Murov dağıdı. Yaxınlarda mən də əsgər olacam. Bəlkə də onların sırasında..." - dedi.

Çəkinə-çəkinə mənə bir kağız verdi: "Oxuyun, fikrinizi bildirin." Şeir idi. Oxudum. Misralar, ümumilikdə könlümə yatdı...

*Qəhrələnməz*
*aranımız-dağımız,*
*İndən belə*
*bar gətirər bağımız...*
*Beş-on günə*
*can itirər yağımız,*
*Ana, əsgər gedirəm!*

*Oğulları ora*
*sınaq çağırır,*
*Uzaqlarda qalan*
*ocaq çağırır,*
*Mərmi düşən doğma*
*torpaq çağırır,*
*Ana, əsgər gedirəm!*

*Məqamında*
*bir şimşəyə dönərik,*
*Şəhidlərin ruhu*
*kimi dinərik...*
*Son döyüşdən*
*qələbəylə dönərik,*
*Ana, əsgər gedirəm!..*

Belə duyğusal şeir yazan gəncin torpaqlarımızı mərdliklə qoruyacağına, Vətənin arzuladığı əsgər olacağına yerə-göyə inandığım qədər inanıram.

Atası da, anası da bu şeiri oxuyunca kövrələcək. Kövrəklik içində qürurlanacaq. Tanıyanlara fəxrlə "Oğlum əsgər gedir!" - deyəcək...

"Ana, əsgər gedirəm!" - deyən, "son döyüşdən qələbəylə dönərik!" deyən əsgərə necə inanmayasan?!...

Kənan gələcəkdə də şeirlər yazacaqmı - şair olacaqmı, bilmirəm. Onu bilirəm ki, Kənan Məmmədli yaxşı əsgər olacaq, nümunəvi əsgər olacaq. Hərbi xidmətdə də, tərxis olunduqdan sonra da "Vətən, sənin əsgərinəm!" - deyəcək...

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

*Sabir Əfəndiyev (Qaraqoyunlu) ədəbiyyatçı-tədqiqatçıdır. İncə ruhludur, poeziyaya böyük marağı, böyük sevgisi var. Onun şeirlərində Vətənin gözəllikləri, yurd həsrəti, Vətən torpağına sevgi kimi müqəddəs hisslər öz bədii əksini tapıb. Hər şeir bir duyğunun tərcümanıdır. Onun iki şeirini təqdim edirik.*

**"Azərbaycan Ordusu"**

## Vətən marşı

Ey mənim müqəddəs ana torpağım,
Sənindir sinəmdə döyünən ürək.
Yolunda canımdan keçməsəm əgər,
Haram olsun mənə verdiyin çörək.

İsti yuvam olub geniş qucağın,
Doğmadan doğmadır hər bir bucağın.
Qəlbimi isidən odun, ocağın
Arzumun açdığı çiçəkdir, çiçək.

Haydı, mərd ərənlər, sıraya durun,
Silaha sarılın, istehkam qurun.
Qəsbkar düşməni gözündən vurun,
Torpaq əsirlikdən qurtarsın gərək.

## Ana Vətənə

Ey müqəddəs torpaq, ey ana Vətən!
Dünyada yeganə gümanım sənsən.
Qibləm, qibləgahım, dinim, imanım,
Düşüncəm, əqidəm, inamım sənsən.

Sənsən adım-sanım, şanım-şöhrətim,
Sevincim, kədərim, arzum, niyyətim,
Elim-günüm, obam, xalqım, millətim,
Dar gündə ürəkdən yananım sənsən.

İstəyim, məqsədim, arzum, əməlim,
Bünövrəm, dayağım, arxam, təməlim,
Nəslim-nəcabətim, kökүm, köməyim,
Dünənim, bugünüm, sabahım sənsən.

Heç kəsin yurduna göz dikməmişəm,
Tikili evindən daş sökməmişəm,
Kimsənin önündə diz çökməmişəm,
Hər gün ibadətim, amalım sənsən.

Qaraqoyunlu da yurd həsrətlidi,
Sevincdən daha çox dərd qismətlidi.
Namuslu, qeyrətli, mərd, ismətlidi,
Mən öləndən sonra qalanım sənsən.

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
mayor
Bəxtiyar ƏLİYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 413
Nüsxə 4700